2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 iyul 2024-cü il tarixli 03 saylı müraciəti üzrə

# RƏYİ

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ucar rayonu Şahlıq kənd sakinləri Mirzəliyev Mehdiqulu Nuru oğlu, Şərifova Şəlalə Oruc qızı, Ramal kənd sakini Məmmədov Xeyrəddin Sədri oğlu, Qaradağlı kənd sakinləri Qurbanova Nərgiz İslam qızı, Əliyeva Surə Mirbağı qızı və digərləri ayrı-ayrılıqda Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 94 saylı Ucar seçki dairəsi üzrə deputatlığa namizədliyi qeydə alınmış Məmmədov Elton Arzuman oğlu tərəfindən namizədliyin qeydə alınması üçün dairə seçki komissiyasına təqdim etdiyi sənədlərdə əmlak və gəlirlərini gizlətdiyini, həmçinin, imza vərəqələrində onların adından atılmış imzaların onlara aid olmadığını mübahisələndirərək onun namizədliyinin ləğv edilməsi barədə müvafiq tədbirlər görülməsini xahiş etmişlər.

Mən, ekspert qrupunun üzvü Qabil Orucov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Araşdırma ilə əlaqədar şikayətçilər ilə əlaqə saxlanılmış, onların araşdırmada və Komissiyanın iclasında iştirak etmək hüquqları izah edilmişdir.

Namizəd E.A.Məmmədovun namizədliyinin qeydə alınması üçün təqdim olunmuş imza vərəqələri və digər seçki sənədləri Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən İşçi qrupu tərəfindən araşdırılmışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, E.A.Məmmədov mülkiyyət hüququ əsasında ona məxsus olan əmlaklar barədə məlumatları gizlətməklə 94 saylı Ucar seçki dairəsi dairə seçki komissiyasına düzgün məlumat verməmişdir.

Belə ki, İşçi qrupu tərəfindən verilmiş 23 iyul 2024-cü il tarixli rəydən müəyyən edilir ki, E.A.Məmmədov ona məxsus və daşınmaz əmlakın dövlət reyestrində mülkiyyət hüququ əsasında qeydə alınmış qeyri-yaşayış sahəsi, mənzil, torpaq sahəsi və fərdi yaşayış evlərinin bir qismi barədə qeyri-düzgün məlumatlar təqdim etmiş, digərləri o cümlədən, 105 ha torpaq sahəsi, ümumi sahəsi 679.1 kv.m olan üç qeyri-yaşayış sahəsi, ümumi sahəsi 797.2 kv.m olan üç fərdi yaşayış evi barədə məlumatları isə təqdim etməmişdir.

Əlavə olaraq, İşçi qrupu tərəfindən namizədin müdafiəsi üçün toplanmış imza vərəqələrində olan imzaların düzgünlüyünün yoxlanılması nəticəsində müəyyən edilmişdir ki, təqdim edilmiş 10 ədəd imza vərəqəsində olan 500 ədəd seçici imzasından 160 ədəd seçici imzası yoxlanılmış və onlardan 85-i qeyri-düzgün olduğundan etibarsız hesab olunmuşdur. Ona görə də qalan imzaların sayı namizədin qeydə alınması üçün kifayət etmədiyindən imzaların yoxlanılması dayandırılmışdır.

Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə görə namizəd həmin Məcəllənin 58-ci maddəsinə uyğun olaraq məlumatları düzgün təqdim etmədikdə onun namizəd kimi qeydə alınmasından imtina edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır.

Göstərilənlərə əsasən 23 iyul 2024-cü il tarixli 03 saylı müraciət əsaslı olduğundan təmin edilməli, 94 saylı Ucar seçki dairəsi dairə seçki komissiyasının 19 iyul 2024-cü il tarixli, 09/30 saylı Qərarı ləğv edilməli, deputatlığa qeydə alınmış namizəd E.A.Məmmədova verilmiş 01 nömrəli vəsiqə etibarsız hesab edilməlidir.

Seçki Məcəlləsinin 19.4-cü, 25.2.1-ci, 25.2.22-ci, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlra baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **rəyə gəldim:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ucar rayonu Şahlıq kənd sakinləri Mirzəliyev Mehdiqulu Nuru oğlu, Şərifova Şəlalə Oruc qızı, Ramal kənd sakini Məmmədov Xeyrəddin Sədri oğlu, Qaradağlı kənd sakinləri Qurbanova Nərgiz İslam qızı, Əliyeva Surə Mirbağı qızı və digərlərinin 23 iyul 2024-cü il tarixli 03 saylı müraciəti əsaslı olduğundan təmin edilsin, 94 saylı Ucar seçki dairəsi dairə seçki komissiyasının 19 iyul 2024-cü il tarixli 09/30 saylı Qərarı ləğv edilsin, deputatlığa qeydə alınmış namizəd E.A.Məmmədova verilmiş 01 nömrəli vəsiqə etibarsız hesab edilsin.
2. Rəy qəbul ediıdiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov